**Arif ABDULLAZADƏ**

# Dostluq şarjı

*Nər doğulub bu ayda,*
*Kim oynamaz bu toyda?!*
*Maşallah, dünya boyda*
*Top kimi bir kürəsən.*

*Amma onu da bil ki,*
*Ömür elə meyil ki,*
*Bu yetmiş beş deyil ki,*
*Bizdən əvvəl girəsən.*

*Şaiqdən gəlir əslin,*
*Tükənməsin qoy nəslin,*
*İyirmi birinci əsrin*
*Yetmişini görəsən.*

*Zamana sarışmısan,*
*Ömrün boyu həyatda*
*Özünlə yarışmısan.*
*Ruhunla qarışmısan*
*Xan Araza, Kürə sən.*

*Qəm eyləmə, ey qoca,*
*Bəxtin təxtindən uca,*
*Zamanı quca-quca*
*Zamanları yarasan.*

*Amma bu qeylü-qalda*
*Bu bəxti qoyma yolda,*
*Bu görkəmdə. bu halda*
*Yüz il ömür sürəsən.*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 12 avqust.- S. 26.